IV BÖLMƏ
NEFT STRATEGİYASI, SAHİBKARLIQ FƏALİYYƏTİ

UOT: 32.; 327.; 94(479.24).

t.f.d. Günel Zəfər qızı MEHDİZADƏ
AMEA Tarix və Etnologiya İnstitutu, elmi işçi,
Azərbaycan Kooperasiya Universiteti, baş müəllim,
E-mail: gunel.mehdizade@mail.ru
https://doi.org/10.30546/4.71.730.02.2026.1186

AZƏRBAYCANIN NEFT STRATEGİYASININ TƏMƏL NÖQTƏSİ

Xülasə

Tədqiqatın məqsədi Azərbaycanın müstəqillik əldə etdikdən sonra düşdüyü çətin siyasi, iqtisadi vəziyyət və onun ölkənin yeritdiyi enerji siyasətinə təsiri məsələləri və Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra hazırlanmış yeni neft strategiyasının reallaşması istiqamətində atılan addımlar, xarici neft şirkətlərinin müqavilənin imzalanmasına münasibəti, Azərbaycanın milli maraqları çərçivəsində neft müqaviləsinin imzalanmasına nail olunması və Azərbaycan neft strategiyasının təməl nöqtəsi olan “Əsrin müqaviləsi”nin Azərbaycanın siyasi və iqtisadi inkişafının möhkəmlənməsindəki əhəmiyyətinin araşdırılmasıdır.

Tədqiqatın metodologiyası əsas etibarilə analiz, təhlil və ümumiləşdirmə metodlarının tətbiqi əsasında formalaşdırılmışdır. Neft müqavilələrinin imzalanması üçün aparılan ilkin danışıqların xarakterinin müəyyənləşdirilməsi, neft müqavilələrinin imzalanmasına nail olunması və yeni neft strategiyasının həyata keçirilməsinin tədqiqi üçün müqayisəli tədqiqat metodlarından istifadə edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti nöqteyi-nəzərindən məqalədə alınmış elmi-praktik yeniliklər Azərbaycanın uzunmüddətli iqtisadi inkişafa hədəflənmiş yeni neft strategiyasının araşdırılması və Azərbaycanın enerji siyasətinin həyata keçirilməsinin obyektiv tədqiqinə imkan vermişdir.

Tədqiqatın nəticələri dünyada enerji təhlükəsizliyinin dünya dövlətləri üçün vacib məsələyə çevrildiyi hazırkı tarixi şəraitdə müstəqilliyin ilk illərində neft siyasətinin reallaşdırılması üçün dövlət strategiyasının hazırlanmasının və həyata keçirilməsinin tarixinin araşdırılması əhəmiyyət daşıyır.

Tədqiqatın orijinallığı və elmi yeniliyi baxımından qeyd etmək lazımdır ki, əsas elmi yenilik enerjinin dünya iqtisadiyyatındakı əhəmiyyətli rolu nəzərə alınaraq 1990-cı illərin əvvəllərində dünyada beynəlxalq münasibətlər, Cənubi Qafqazda olan geosiyasi vəziyyət fonunda beynəlxalq və regional güclərin bölgədəki maraqlarının siyasi və iqtisadi şərtləri təhlil edilmiş, Azərbaycan Respublikasının enerji siyasəti və Heydər Əliyevin neft strategiyası elmi-nəzəri cəhətdən öyrənilmişdir. Xəzərin enerji ehtiyatlarının nəqli ilə bağlı çoxşaxəli boru kəmərləri marşrutlarının müəyyən edilməsi prosesi izlənilmiş və təhlil edilmiş, eyni zamanda Xəzər dənizinin karbohidrogen ehtiyatlarının dünya bazarlarına nəqlində Qərb yolunun seçilməsinin tarixi-siyasi şərtləri elmi əsaslarla göstərilmişdir.

Açar sözlər: Heydər Əliyev, müqavilə, neft, karbohidrogen ehtiyatları, neft danışıqları, neft strategiyası, enerji dəhlizi.

Giriş

XX əsrin sonlarında “Soyuq müharibə”nin başa çatması, SSRİ-nin dayaqlarının laxlaması və dağılması ilə nəticələnən milli azadlıq hərəkatlarının qalxması dünyada beynəlxalq münasibətlər

sistemində köklü dəyişikliklər yaratdı. Cənubi Qafqazda və dünyada baş verən siyasi proseslər Azərbaycan xalqına da öz müqəddəratını müstəqil şəkildə müəyyənləşdirmək üçün tarixi imkan yaratdı. Keçmiş ittifaqın tərkib hissələri olan yeni müstəqil dövlətlər meydana gəldi və əsrin sonlarında Azərbaycan da suverenliyinə qovuşmuş oldu. Müstəqillik əldə etdikdən dərhal sonra digər postsovet ölkələri kimi Azərbaycan da dərin iqtisadi böhran vəziyyətinə düşdü. Ölkənin müharibəyə cəlb olunması, hakimiyyət savaşları, daxildə hökm sürən xaos və özbaşınalıq, ölkəni parçalamaq istəyən qüvvələrin fəallaşması, ölkənin cənubunda talış respublikasının yaradılmasına cəhdlər, Gəncədə qiyam və s. Azərbaycanı müstəqilliyinin itirilməsi təhlükəsi ilə qarşı-qarşıya qoydu. Bakıda siyasi mübarizənin daha da kəskinləşdiyi bir vaxtda və ölkə vətəndaş müharibəsi astanasında olanda Heydər Əliyev paytaxta qayıtdı və 1993-cü ildə baş verən üsyan cəhdləri fonunda prezident səlahiyyətlərini həyata keçirməyə başladı [5, s.9]. Məhz belə bir çətin tarixi-siyasi dövrdə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıtması Azərbaycanın suverenliyinin qorunması, vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu prosesinin başlanmasına şərait yaratdı.

Siyasi və iqtisadi sabitliyin əldə edilməsi üçün görülən tədbirlər

Heydər Əliyev hakimiyyətə gəldikdən sonra ilk növbədə siyasi və iqtisadi sahədə inkişafa nail olmaq üçün ciddi addımlar atmağa başladı. Heydər Əliyev iqtisadiyyatı inkişaf etdirmək üçün ilk növbədə Azərbaycanın uzunmüddətli gələcəyə hədəflənmiş neft strategiyasını hazırladı. Bu sahənin dirçəlməsi üçün xarici sərmayə tələb olunurdu. Lakin dünyanın aparıcı neft şirkətləri və neft korporasiyaları qeyri-sabit siyasi vəziyyəti olan, müharibə gedən bölgəyə sərmayə yatırımı, investisiya qoyuluşu etməkdən çəkinirdilər.

Azərbaycanın iqtisadi vəziyyətini yaxşılaşdırmaq, Xəzər neftinin çıxarılması və dünya bazarlarına çatdırılması üçün xarici neft korporasiyaları ilə danışıqlar aparıb onları ölkəyə cəlb etmək üçün əvvəlcə ölkədə siyasi stabilliyə nail olmaq lazım idi. Bu baxımdan 12 may 1994-cü ildə bir tərəfdən Azərbaycan Respublikası, bir tərəfdən Ermənistan və tanınmamış Dağlıq Qarabağ Respublikası arasında üçtərəfli atəşkəs sazişi imzalanması ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edirdi. Beləliklə, 1988-ci ildən başlayan qanlı müharibə dayandırıldı. “O vaxt müharibəni dayandırmaq gənc dövləti xilas etmək üçün yeganə yol idi. Ağır bir qərar idi. Bu, bizə imkan verdi ki, Azərbaycan inkişaf yoluna qədəm qoysun. İmkan verdi ki, sabitlik bərpa edilsin, nizami ordu qurulsun, iqtisadi inkişaf üçün ilkin imkanlar yaransın” [11, s.4].

Heydər Əliyev dünya ictimaiyyətini Azərbaycan Respublikası ilə nəinki neft-qaz sənayesi sahəsində, hərtərəfli əməkdaşlıq perspektivlərinin olduğuna inandırdı. Onun şəxsiyyətinə, sözünə olan etimad bölgəyə investisiya axınının gəlməsinə şərait yaratdı. Əgər əvvəllər xarici transmilli korporasiyalar bölgəyə gəlməyə risk etmir, yüksək məbləğdə maliyyə vəsaitini bölgəyə yatırmaqdan çəkinirdilərsə, indi Heydər Əliyevin təminatı ilə Azərbaycanın neft-qaz sənayesini qaldıracaq layihələrə investisiya yatırmağa razı oldular.

Neft danışıqları

Bu işi reallaşdırmaq üçün xarici neft şirkətləri ilə müxtəlif səviyyələrdə danışıqlar prosesi başlandı. Qeyd edək ki, Azərbaycan neftinin çıxarılması və dünya bazarlarına daşınmasında maraqlı olan ölkələr zaman-zaman öz maraqlarını ortaya qoymuş, Azərbaycan hökuməti ilə bu sahədə razılaşmaya nail olmaq istəmişdilər. Hələ 1990-cı ildə xarici neft şirkətləri ilə danışıqlara başlanmışdı. SSRİ hökuməti o zaman “Azəri” yatağını xarici neft şirkətləri ilə birgə işləmək üçün seçmişdi. 1991-ci ilin iyun ayında ABŞ-ın “Amoko” şirkəti keçirilmiş tenderdə qalib gəlmişdi və Azərbaycan nümayəndə heyəti şirkət rəhbərliyi ilə danışıqlar aparmaq, neftin axtarışı və hasilatı ilə bağlı məsələlərlə tanış olmaq, mövcud praktikanı öyrənmək və gələcək fəaliyyət planını müəyyənləşdirmək üçün ABŞ-a səfər etmişdi. Layihəyə eyni zamanda “Britiş Petroleum/Statoyl” alyansı, “Yunokal”, “McDermott” (ABŞ) və “Ramko” şirkətləri də cəlb edilmişdilər. 1991-ci ilin dekabr ayından etibarən onlarla da danışıqlar başlanmışdı. 18 oktyabr 1991-ci ildə Azərbaycan müstəqillik əldə etdikdən sonra neft danışıqlarının xarakterinin dəyişilməsi, yəni milli dövlətçilik maraqlarının üstə çıxarılması üçün tarixi şərait yetişmişdi. Belə ki, Azərbaycan öz təbii sərvətlərinin sahibi kimi artıq neft

danışıqlarında Rusiyanın diktəsi və maraqları çərçivəsində deyil, beynəlxalq hüququn tam və bərabərhüquqlu subyekti kimi müstəqil bir dövlətin adından çıxış etmək üçün şərait yaranmışdı. Lakin Azərbaycan hakimiyyətinin bu siyasi şəraitdən istifadə edib ölkənin maraqlarının qorunması üçün siyasi bacarıq nümayiş etdirməməsi dövlətin əleyhinə işləyirdi.

Dünyanın aparıcı neft şirkətləri isə yalnız öz iqtisadi maraqları çərçivəsində hərəkət edirdilər. Danışıqlar davam edirdi və artıq “Azəri” yatağının birgə işlənilməsinin texniki-iqtisadi əsaslandırılması layihəsi üzərində işlər tamamlanmışdı. Hətta gəlirlərin bölüşdürülməsi prinsipləri razılaşdırılsa da, Azərbaycanda 1992-ci ildə hakimiyyətin dəyişməsi bu müqavilənin imzalanmasına imkan vermədi.

1992-ci ilin 13 sentyabr tarixində Azərneft Dövlət Konserninin və Azərnefkimya İstehsalat Birliyinin bazasında Azərbaycan Dövlət Neft Şirkəti yaradıldı. Xarici neft şirkətləri ilə danışıqlar davam etdirildi. Danışıqların predmetinə “Çıraq” yatağı da əlavə olundu. Müqavilənin müxtəlif variantları üzərində iş başlanmışdı, lakin vahid müqavilənin bağlanması fiziki baxımdan hazır deyildi. Burada təkcə vahid müqavilə mətnindən söhbət getmirdi. Danışıqlarda bütün maliyyə məsələləri, iqtisadi sabitliyə və görülən işlərə təminat məsələləri, payların bölüşdürülməsi, siyasi prosesləri yoluna qoymaq, müqavilə ətrafında gedən bütün iqtisadi məsələlərin həllinə nail olmaqdan gedirdi. ARDNŞ-nin mütəxəssisləri Londonda öz variantlarını, xarici neft şirkətləri isə Hyustonda alternativ variantları hazırlamalı idi. İyun ayının sonunda isə tərəflərin London görüşündə variantlar müzakirə edilməli idi. Belə bir dövrdə ölkədə vətəndaş müharibəsi təhlükəsinin artıq başlanması, siyasi proseslərin ağırlaşması qətiyyətsiz hakimiyyətin böhranını dərinləşdirirdi. Ölkədə baş verən qiyam, daxili çəkişmələr və hakimiyyət uğrunda gedən mübarizə iyun ayında imzalanması nəzərdə tutulmuş müqavilənin reallaşmasına imkan vermədi.

Xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə gələn Heydər Əliyev ölkəni düşdüyü ağır iqtisadi-siyasi vəziyyətdən çıxarmaq üçün neft şirkətləri ilə danışıqları dayandırıb, yeni müstəvidə, yeni şərtlərlə, Azərbaycanın mənafeyinin tamamilə gözlənilməsi şərtləri daxilində danışıqların aparılmasının zəruriliyi məsələsini ortaya qoydu. Bütün bunlar Azərbaycanın Xəzər bölgəsindəki qonşuları ilə mürəkkəb münasibətlərdə olduğu bir şəraitdə baş verirdi. Bağlanmış müqavilələr milli və iqtisadi mənafeləri layiqincə təmin etmədiyi üçün yenidən baxılmaq məqsədi ilə dayandırıldı. “İlk növbədə, dövlətin, xalqın mənafeyinə üstünlük verilməlidir, eyni zamanda, xarici şirkətlərin iqtisadi mənafeyi ödənilməli və bu işlər qarşılıqlı fayda, qarşılıqlı anlaşma zəminində təşkil olunmalıdır. Unutmamalıyıq ki, neft Azərbaycanın tükənməz sərvətidir. Elə etmək lazımdır ki, gələcək nəsillər də Azərbaycanın bu nadir sərvətindən kifayət qədər istifadə edə bilsinlər. Ona görə də biz yeni mərhələdə xarici neft şirkətləri ilə əlaqə qurarkən bu əsas məsələni unutmamalıyıq” [1, s.61] deyən Heydər Əliyev yaxın gələcəkdə imzalanacaq neft müqavilələrində Azərbaycan xalqının mənafeyinin qorunmasını ön plana çəkirdi.

Azərbaycanın öz daxili imkanları daxilində neft-qaz sənayesinin vəziyyətini qaldırmaq böyük zaman və külli miqdarda maliyyə vəsaiti tələb edirdi. Dənizdə neft çıxarılması böyük sərmayə tələb edirdi. Lakin ölkənin iqtisadi vəziyyəti o dövrdə buna imkan vermirdi. Həmçinin, müasir strandartlara cavab verən texnologiyanın ölkəyə gətirilməsi, beynəlxalq praktikanın tətbiq olunması lazım idi. Hazırlanmış yeni neft strategiyası Azərbaycanın karbohidrogen ehtiyatları vasitəsilə iqtisadiyyatının dirçəlməsinə və ölkənin müstəqilliyinin möhkəmlənməsinə yönəlmişdi. Bu baxımdan bu sahəyə xarici kapital qoyuluşu zamanın tələbi idi.

Müqavilədə danışıqların predmetinə həmçinin “Günəşli” yatağının dərinsulu hissəsindəki karbohidrogen ehtiyatlarının mənimsənilməsi də əlavə edildi. Beləliklə, “Azəri”, “Çıraq” və Günəşli” yataqlarından neft ehtiyatlarının çıxarılması üçün danışıqlara başlandı. 1994-cü ilin mart ayında neft şirkətləri ilə danışıqlar bərpa olundu. O zaman ARDNŞ-nin xarici əlaqələr üzrə vitse-prezidenti vəzifəsində çalışan İlham Əliyev danışıqlar prosesinə daxil oldu. Bu iş yüksək peşəkarlıq, siyasi və iqtisadi biliklərə malik olmağı, neft siyasətini dərindən bilməyi tələb edirdi. Tələskənliyə yol verməmək, ölkəni ağır maliyyə asılılığı və borca salmamaq, neft şirkətləri ilə münasibətləri və gələcək iş prinsiplərini maksimim respublikamızın xeyrinə yönəltmək naminə xüsusi strategiya,

ciddi düşünülmüş taktiki addımlar tələb olunurdu. Bu zərurətdən irəli gələn və bu prinsiplərin qorunduğu enerji sahəsində uzunmüddətli bərabərhüquqlu əməkdaşlığın təməli qoyuldu. Azərbaycan enerji ehtiyatlarının mənimsənilməsi və dünya bazarlarına sabit və təhlükəsiz axınının təmin edilməsi üçün infrastrukturun yaradılması prosesində bu danışıqların böyük əhəmiyyəti var idi. Çünki görüləcək meqalayihələrin təməli məhz bu danışıqlarda atılırdı və danışıqlar prosesi heç də rəvan getmədi.

Qeyd etmək lazımdır ki, Azərbaycanın neft strategiyasının həyata keçirməsinə bir sıra daxili və xarici qüvvələr mane olmağa çalışırdılar. Onlar ölkə başçısı tərəfindən atılan qətiyyətli addımların Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsi və gələcək iqtisadi tərəqqi üçün açılan yol olduğunu aydın görürdülər. Bu dövrdə xaricdə, xüsusilə ABŞ-da erməni diasporu fəallaşmışdı və anti-Azərbaycan fəaliyyətini genişləndirirdi. Diaspora ilə paralel şəkildə Azərbaycana hərbi təcavüz etmiş, torpaqlarını işğal etmiş və özü də iqtisadi çətinlikdə olan, Azərbaycanın yeritdiyi siyasətə, onun təbii sərvətlərinə qısqanclıqla yanaşan Ermənistan da hər cür vəchlə bu işə mane olmağa çalışırdı. Hətta tanınmamış qondarma “Dağlıq Qarabağ Respublikası”nın prezidenti R.Koçaryan belə bir bəyanat vermişdi ki, “Azərbaycanın bir barel nefti belə dünya bazarlarına çıxmayacaq, biz buna imkan verməyəcəyik” [13, s.211]. Lakin Azərbaycan Respublikası onun yeritdiyi neft strategiyasına qarşı yönəlmiş olan daxili və xarici siyasi, hərbi və s. maneələri dəf edərək, bütün çətinliklərin öhdəsindən gələrək heç nəyə baxmadan, ölkəmizin iqtisadi və siyasi tərəqqisinin təməl daşı hesab olunan bu sazişin reallaşmasına nail oldu. Bu tip bəyanatlar elə söz olaraq qaldı.

Bu qüvvələr içərisində yer alan Rusiya Federasiyası Azərbaycanın müstəqil xarici siyasət yeritməsi və iqtisadi inkişaf üçün Qərb dövlətlərini ölkəyə dəvət etməsinə qarşı olduğunu gizlətmirdi. Əvvəla, Rusiya Azərbaycanın müstəqil şəkildə Xəzər dənizində enerji layihələrini həyata keçirməsi ilə barışa bilmirdi. Siyasi və diplomatik təzyiqlər yolu ilə bu işi pozmağa çalışırdı. Azərbaycanın ağıllı, düşünülmüş siyasi xətlə gələcək iqtisadi inkişaf yoluna qədəm qoyması Rusiyanın Cənubi Qafqazla olan planları ilə üst-üstə düşmürdü. Bu baxımdan Rusiya hər vəchlə bu prosesə mane olmağa səy göstərirdi. Danışıqlar prosesində də məhz Rusiyanın mövqeyi, hüquqi status məsələsi düyün nöqtələrindən biri idi. Bu baxımdan Azərbaycan Rusiyanın sərt mövqeyini neytrallaşdırmaq, Rusiya Federasiyasının Azərbaycana Xəzər dənizində neft hasilatını sərbəst şəkildə həyata keçirmək üçün xarici neft şirkətləri ilə müqavilə imzalanmasına mane olmasının qarşısını almaq, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsində Rusiyanın dəstəyini qazanmaq üçün balanlaşdırılmış siyasət yeritməyə nail oldu. Əvvəlki hakimiyyətin qonşularla balanslı siyasət yeridə bilməməsi, beynəlxalq siyasəti düzgün qiymətləndirə bilməməsi və bölgədə cərəyan edən siyasi hadisələrə lazımi səviyyədə yanaşmaması səbəbindən neft danışıqları və neft müqavilələrinin uğurla reallaşmasına nail olunmamışdı. Bütün bunları nəzərə alan Azərbaycan hökuməti Rusiyanın “Lukoyl” şirkətinə Xəzərin Azəbaycan sektorunda neft hasil etmək hüququ verdi. Bundan sonra Azərbaycana və onun neft siyasətinə qarşı olan Rusiyanın mövqeyində gözləgörünür “yumşalma” Rusiya Federasiyanın baş naziri V.Çernomırdinin “Rusiya Azərbaycanın Qərb şirkətləri ilə müqavilə imzalamasına etiraz etmir” ifadəsi ilə möhkəmləndi. Eyni zamanda Xəzər dənizinin statusu və dibinin bölünməsi məsələsində Azərbaycana qarşı iddiaları olan Türkmənistan və İran İslam Respublikası ilə münasibətlər normallaşdırıldı. Yəni Rusiya və İranla qarşı-qarşıya qalan Azərbaycan üçün bu münasibətlərin düzəldilməsi o dövr üçün Azərbaycan Respublikasının milli maraqlarının bərpası üçün atılan addımlardan idi.

Neft danışıqları əvvəlcə Bakıda, sonra isə İstanbul və Hyustonda keçirildi. Neft müqavilələrinin imzalanmasi ilə aparılarn danışıqların ən mühüm mərhələsi Hyuston danışıqları hesab edilir. İlham Əliyev sonralar “Caspian Energy” jurnalına verdiyi müsahibəsində deyirdi: “Bu zaman bizim qarşımızda üç əsas vəzifə dayanmışdı: birincisi, müqavilənin imzalanmasına nail olmaq. İkincisi, müqavilədə Azərbaycan üçün ən əlverişli həm hüquqi, həm də iqtisadi şərtlər yaratmaq. Üçüncüsü isə müqavilənin işləməsinə nail olmaq” [3, s.7]. Bu müqavilə sadə bir neft sənədi deyildi, onun arxa fonunda böyük dövlətlərin öz aralarındakı rəqabət, eyni zamanda Qərbin və Rusiyanın bölgə

maraqlarının toqquşması idi. Azərbaycan isə bu ziddiyyətlərin fonunda təbii ehtiyatlarından öz iqtisadi inkişafını möhkəmləndirməyi, dövlət müstəqilliyini qoruyub saxlamağı və eyni zamanda heç bir dövlətdən və qlobal gücdən asılı qalmamağı, son nəticədə ölkəni düçar olduğu müharibə vəziyyətindən çıxarmağı, işğal olunmuş topaqlarını geri almağı hədəfləyirdi. Bu problemləri respublika üçün zərərsiz həll etmək, regional və beynəlxalq ziddiyyətlərin neft müqaviləsinin şərtlərinə ciddi şəkildə təsir etməsinə mane olmaq, Azərbaycanın sonrakı siyasi və iqtisadi inkişafı üçün təməl yaratmaq böyük siyasi və diplomatik bacarıq tələb edirdi.

Neft müqavilələrinin imzalanmasına nail olunması

1994-cü il sentyabrın 14-də “Xəzərin Azərbaycan sektorunda neft yataqlarının birgə işlənməsi haqqında xarici neft şirkətləri konsorsiumu ilə danışıqların yekunları barəsində” Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev fərman imzaladı [7]. 1994-cü il sentyabrın 20-də isə Bakıda Gülüstan sarayında dünyanın 7 ölkəsinin 11 məşhur neft şirkəti ilə Xəzər dənizinin Azərbaycan sektorundakı “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinsulu hissəsinin birgə işlənməsinə və Hasilatın Pay Bölgüsünə dair sonralar “Əsrin müqaviləsi” kimi tanınan məşhur Saziş (HPBS) imzalandı [4, s.164]. Milli Məclisin 2 dekabr tarixli 933 nömrəli Qanunu ilə 1994-cü il 20 sentyabr tarixli “Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında müqavilə təsdiq edildi [6, s.126].

“Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olduğunu, Azərbaycanın tam müstəqil dövlət olduğunu, xalqımızın öz sərvətlərinə özünün sahib olduğunu dünyaya bir daha nümayiş etdiririk. Biz müqaviləni imzalamaqla Azərbaycan Respublikası ilə dünyanın inkişaf etmiş dövlətləri, onların ən böyük şirkətləri arasında əlaqələr yaradır, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına, azad bazar iqtisadiyyatına qoşulması üçün əsas yaradırıq. Biz bu müqaviləni imzalamaqla dünyaya bir daha nümayiş etdiririk ki, müstəqil Azərbaycan Respublikası demokratik və hüquqi dövlətdir” [4, s.258].

“Əsrin müqaviləsi” məhz bu çətin siyasi, iqtisadi şəraitdən çıxış, neçə qənirə gələcəyə hesablanmış bu uğurlu neft strategiyasının, Azərbaycanın tərəqqi konsepsiyasının başlanğıc nöqtəsi idi [10, s.3]. Dünyanın ondan çox iri neft şirkətinin bir platformada bu formatda işləməsi və meqalayihə həyata keçirməsi neft tarixində görünməmiş bir hadisə idi və Heydər Əliyev buna nail oldu. Bu şirkətlərin Azərbaycana investisiya yatırması və köhnəlmiş sovet texnologiyaları ilə işləyən neft sənayesini dünya standartlarına cavab verən, müasir texnoloji avadanlıqla, tanker, gəmilərlə, neft platformaları və zavodları ilə təmin edilmiş sənayeyə çevrilməsi burada düzgün hesablanmış strategiyanın və onun nəticəsi olaraq yaradılmış biznes mühitinin Qərbin neft şirkətlərinin tələblərinə cavab verdiyini göstərirdi. Xarici transmilli neft şirkətləri ilə bağlanmış müqavilələr Azərbaycanın suvevenliyinin qarantı rolunda çıxış edə bilərdi və eyni zamanda müharibəyə cəlb olunmuş bir ölkə beynəlxalq tərəfdaşların himayəsini əldə etməyə çalışırdı. Beləliklə, “neft faktoru” Azərbaycan üçün o dövrdə Qərb dövlətləri ilə səmərəli əməkdaşlıq münasibətləri qurmaq üçün əhəmiyyətli faktora çevrildi.

Bu müqavilənin imzalanması ilə xarici şirkətlərin ölkəmizə investisiya kimi qoyduğu 7,4 milyard dollar vəsait o zaman üçün çox yüksək məbləğ hesab edilirdi və bu şirkətlər Azərbaycan liderinə etimad etməklə, onun təminatı ilə belə bir məbləği yatırmağa razılıq verdilər. Müqaviləyə əsasən, müqavilə imzalandıqdan 54 ay sonra bütün nəzərdə tutulan yataqlardan neftin çıxarılması təmin edilməli idi və bu müddət ərzində neftin daşınması üçün neft kəmərinin çəkilməsi planlaşdırılırdı.

Bunun davamı olaraq neftin daşınması yollarının müəyyənləşdirilməsi mərhələsi dururdu. Neftin daşınma marşrutlarının seçilməsi və onların istiqamətlərinin müəyyənləşdirilməsi Azərbaycan üçün strateji vacib məsələ olmaqla Azərbaycanın yeritdiyi xarici siyasəti özündə əks etdirirdi. Azərbaycanın dünyaya yollarını açacaq Şərq-Qərb dəhlizinin açılması bu dövrdə tarixi zərurətə çevrilmişdi. Bu vəziyyətdə “boru” siyasətinin mümkün istiqamətləri “ələnməyə”, onların sayı minumuma enməyə başladı: Şimal marşrutu (Rusiyadan keçməklə), qərb marşrutu (Gürcüstandan

Türkiyəyə), cənub marşrutu (İrandan keçməklə). “Şimal” və “Cənub” marşrutlarının mümkün variantlar sırasında olmasına baxmayaraq, hökumətin həyata keçirtdiyi siyasət göstərdi ki, Azərbaycan Respublikası yaxın gələcəkdəki prespektivlərdə Şərq-Qərb dəhlizinin inkişaf etdirilməsini dövlət siyasətinin əsas strateji xətlərindən birinə çevirdi.

Bu dövrdə Heydər Əliyevin neft siyasətinin əsas istiqamətləri enerji daşımaları və nəqliyyat dəhlizlərinin inkişaf etdirilməsi idi. Heç bir neft-boru kəmərindən asılı qalmayıb qarşıya çıxacaq maneələrin və risklərin öhtəsindən gəlmək üçün enerjinin daşınmasında diversifikasiyaya, yəni çoxşaxəli daşınma marşrutlarına sahib olmaq Azərbaycan üçün həyati əhəmiyyət kəsb edirdi və Azərbaycan buna nail oldu. Bakı-Novorossiysk boru xəttinin ardınca, neftin Qərbə yolunu açan Bakı-Supsa, sonra isə Bakı-Tbilisi-Ceyhan neft boru xətlərinin, Bakı-Tbilisi-Ərzurum qaz boru xəttinin reallaşması ilə Azərbaycan enerji daşımalarında hədəfləmiş olduğu diversifikasiyanı əldə etdi.

Neft müqaviləsində əksini tapan əsas platformalardan biri olan “Çıraq”da müqavilədən üç il sonra 1997-ci ildə ilk neft çıxarıldı. Bu neft həmin dövrdə mövcud olan və təmir edilmiş Bakı-Novorossiysk kəməri ilə 1998-ci ildə Qara dəniz limanları ilə dünya bazarlarına ixrac edilməyə başlamışdı. Lakin Azərbaycan üçün çoxşaxəli və Rusiyadan yan keçən boru kəməri həyati əhəmiyyət daşıyırdı. Bu baxımdan qərb istiqaməti götürən Azərbaycan bir ildən sonra, yəni 1999-cu ildə Bakı-Supsa neft kəmərini istifadəyə verdi. Bununla Azərbaycan neftini artıq birdən artıq istiqamət sayı ilə dünya bazarlarına çıxarmağa başladı. 18 sentyabr 2002-ci il tarixində Bakıda, Səngəçal terminalında Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan ixrac neft kəmərinin təməli qoyuldu [2, s.309]. 2006-cı ilin 13 iyulunda rəsmi açılışı olan Heydər Əliyevin neft siyasətində “Əsrin müqaviləsi”ndən sonra ikinci şah əsər adlandırılan Əsas İxrac Boru Kəməri Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istismara verilməsi ilə Azərbaycanın əsas neftinin dünyaya çatdırılmasında həlledici mərhələnin başlanğıcı qoyuldu.

Beləliklə, “Əsrin müqaviləsi”nin imzalanması və uğurla həyata keçirilməsi Heydər Əliyev tərəfindən əsası qoyulmuş Azərbaycanın yeni neft strategiyasının təməli hesab edilir. Əsas İxrac Boru Kəmərinin reallaşması da məhz bu strategiyanın düzgün seçilməsindən irəli gəlirdi. Bu boru xətti Azərbaycanı dünya neft arteriyası sistemində önəmli çəki tutmasına səbəb oldu. Prezident İlham Əliyev də bu boru xəttinin çəkilib istismara verilməsini çox yüksək qiymətləndirirdi. O, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təkcə kommunikasiya sistemi deyil, Cənubi Qafqazın qloballaşmasının strateji açarı olduğunu qeyd edirdi: “BTC neft kəməri geosiyasi xarakter daşıyır və dünya proseslərinə təsir edəcəkdir” [12, s.4].

Azərbaycanın müstəqillik tarixində iqtisadi inkişafın uzun yolunun başlanğıcı hesab edilən “Əsrin müqaviləsi” sonrakı illərdə yeni beynəlxalq sazişlərin imzalanmasına yol açdı və sonradan daha otuz beş saziş imzalandı. Bu müqavilə otuz il müddətinə imzalanmışdı və 2017-ci ilin sentyabrın 14-də “Azəri-Çıraq-Günəşli” yataqlarının birgə işlənməsi haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş müqavilə imzalandı və müqavilənin ömrü 2050-ci ilə kimi uzadıldı [8]. SOCAR-ın payı 11,6 faizdən 25 faizə qaldırıldı və Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsinin 75 faiz təşkil etməsi nəzərdə tutuldu.

Ölkəmizin müasir dövr neft tarixi əlamətdar və qlobal səciyyə daşıyan tarixi hadisələrlə doludur. Azərbaycanın bu gün təkcə neft ixrac edən deyil, həmçinin nəhəng qaz ixracatçı bir ölkə kimi Avropa ölkələrinin enerji təhlükəsizliyindəki rolu danılmazdır. “Cənub Qaz Dəhlizi” layihəsini uğurla reallaşdıran respublikamız Azərbaycan qazının Bakıdan Avropadakı qaz alıcılarına kimi çatdırılmasına nail olmaqla dünyadakı geosiyasi çəkisini daha da artırır. Ümummilli Lider Heydər Əliyev tərəfindən təməli qoyulan enerji siyasəti bu gün TAP, TANAP layihələri ilə uğurla davam etdirilir. Azərbaycan dünyanın aparıcı dövlətləri arasında etibarlı tərəfdaş statusu qazanmışdır. Avropada Rusiya-Ukrayna münaqişəsinin davam etməsi və dünyada gedən gərgin geosiyasi proseslər fonunda Azərbaycanın yeritdiyi siyasətin müasir geoiqtisadi və geosiyasi şəraitə uyğunlaşdırılması və bu siyasətin dinamik şəkildə reallaşdırılmasına nail olunması ölkəmiz üçün böyük siyasi və iqtisadi əhəmiyyət kəsb edir.

Nəticə

Beləliklə, Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəldikdən sonra ölkədə siyasi sabitliyin və iqtisadi yükşəlişin əldə edilməsi istiqamətində əhəmiyyətli addımlar atıldı. Xarici neft şirkətləri ilə yeni müstəvidə, Azərbaycanın milli maraqları çərçivəsində danışıqlar aparılmağa başlandı. Neft müqavilələrinin imzalanmasına nail olunması üçün ciddi işlər görüldü. Dünyanın aparıcı neft şirkətlərinin Xəzərin karbohidrogen ehtiyatlarının çıxarılması üçün lazım olan investisiyanı yatırmaları, neftin çıxarılması, emalı və daşınması üçün ehtiyac olan infrastrukturun qurulması və beləliklə, 1994-cü il 20 sentyabr tarixində Azərbaycanın enerji siyasətinin təməlini qoyan “Əsrin müqaviləsi”nin imzalanması və uğurla həyata keçirilməyə başlanması ilə Azərbaycanın iqtisadi inkişafının təməli qoyuldu. Bu müqavilə Azərbaycanın əldə etdiyi dövlət müstəqilliyinin zəmanətinə çevrildi. Azərbaycanın neft strategiyasının başlanğıc nöqtəsi olan “Əsrin müqaviləsi” respublikamızın enerji sənayesinin dünya standartlarına çatdırılması, dünya praktikasının ölkəmizdə tətbiq edilməsi və beləliklə dünyanın enerji təchizatçılarından birinə çevrilməsinə səbəb oldu. Təkcə karbohidrogen ehtiyatlarına sahib olmaq bu statusu qazanmağa yetmir. Bu ehtiyatları ən uğurlu variantlarda dünya bazarlarına istiqamətləndirmək Azərbaycanın Heydər Əliyev tərəfindən təməli qoyulan neft siyasətinin uğurudur. Bu gün neft strategiyasının uğurla reallaşdırılması Azərbaycanın dünyada etibarlı strateji tərəfdaşa çevrilməsinə gətirib çıxarmışdır.

ƏDƏBİYYAT

1. Aparıcı neft şirkətlərinin və korporasiyalarının nümayəndələri ilə görüşdə Heydər Əliyevin çıxışı. Müstəqilliyimiz əbədidir: 1-ci kitab. Bakı: Azərnəşr, 1997.- s. 61.
2. Azərbaycan tarixi [yeddi cilddə] / Məsul redaktor T.Qaffarov. - Bakı: Elm, - c.7 (1941-2002-ci illər). 2008, - 608 s.
3. Bəhramov, C.Ə. Azərbaycan Respublikasinin neft strategiyası və Rusiya Federasiyasının Cənubi Qafqaz siyasəti (1994-2004) // Qərb Universiteti Elmi Xəbərləri, 2013, sayı 2, s. 3-14.
4. Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir. 46 cilddə. II kitab. May 1994 – dekabr 1994. Bakı: Azərnəşr. 1997, – 604 s.
5. Heydər Əliyev və “Əsrin müqaviləsi”. // “Azərbaycan” qəzeti. - 2023.- 20 sentyabr. - № 203. - s. 9.
6. Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında 924 №-li Qanuna dair Material (Bakı: 15 noyabr 1994-cü il) // Azərbaycan Respublikasının Milli Məclisinin arxivi, fond 2941, Siyahı 1, İş №245, s.126.)
7. Xəzərin Azərbaycan sektorunda neft yataqlarının birgə işlənilməsi haqqında xarici neft şirkətləri konsorsiumu ilə danışıqların yekunları barəsində Azərbaycan Respublikasının Prezidentinin fərmanı https://e-qanun.az/framework/9021
8. İlham Əliyev “Azəri”, “Çıraq” və “Günəşli” yataqları üzrə yeni Sazişin imzalanması mərasimində iştirak edib // https://president.az/az/articles/view/25217
9. Yusifzadə, X. Azərbaycanın neft-qaz sənayesi “Əsrin müqaviləsi”nin imzalanmasından ötən 25 ildə əsrə bərabər inkişaf yolu keçib // Xalq qəzeti.- 2009, 19 sentyabr, - s.3.
10. “1994-cü ildə atəşkəs hər iki tərəf üçün sərfəli idi”, Xalq qəzeti, 13 may, 2025, s.4.
11. Алиев, И.Г. Гейдар Алиев оказался прав // Бакинский рабочий. - 2006, - 1 августа.- с.4.
12. Султанов, Ч. Азербайджан в цифрах, графиках, картах и фото /Ч.Султанов. - Баку: Чашыоглу, - 2012. - 238 с.

Гюнель Зафар кызы Мехтизаде
НАНА Институт Истории и Этнологии, научный сотрудник,
доктор философии по истории
Азербайджанский Университет Кооперации
E-mail: gunel.mehdizade@mail.ru

Основной пункт нефтяной стратегии Азербайджана

Резюме

Целью исследования является изучение сложной политической и экономической ситуации, в которой оказался Азербайджан после обретения независимости, и её влияния на энергетическую политику страны, шагов, предпринятых для реализации новой нефтяной стратегии, разработанной после прихода Гейдара Алиева к власти, отношения иностранных нефтяных компаний к подписанию контракта, достижения подписания нефтяного контракта в рамках национальных интересов Азербайджана и значения "Контракта века", являющегося краеугольным камнем нефтяной стратегии Азербайджана, в укреплении политического и экономического развития Азербайджана.

Методология исследования в основном формировалась на основе применения методов анализа и обобщения. Сравнительные методы исследования использовались для определения характера первоначальных переговоров, проведённых для заключения нефтяных контрактов, достижения подписания нефтяных контрактов и изучения реализации новой нефтяной стратегии.

Результаты исследования полученные в статье научные и практические инновации позволили объективно изучить новую нефтяную стратегию, направленную на долгосрочное экономическое развитие Азербайджана и реализацию энергетической политики страны. Результаты исследования. В современных исторических условиях, когда энергетическая безопасность стала важным вопросом для мировых держав, актуально изучение истории подготовки и реализации государственной стратегии реализации нефтяной политики в первые годы независимости.

Оригинальности и научной новизна исследования - основная научная новизна заключается в том, что, учитывая значительную роль энергетики в мировой экономике, научно-теоретически проанализированы политико-экономические условия, интересы международных и региональных держав в регионе на фоне международных отношений в мире начала 1990-х годов, геополитическая ситуация на Южном Кавказе, энергетическая политика Азербайджанской Республики и нефтяная стратегия Гейдара Алиева. Проведен мониторинг и анализ процесса определения маршрутов многоветвевых трубопроводов для транспортировки каспийских энергоносителей, а также научно обоснованы историко-политические условия выбора западного маршрута транспортировки каспийских углеводородных ресурсов на мировые рынки.

Ключевые слова: Гейдар Алиев, контракт, нефть, запасы углеводородов, нефтяные переговоры, нефтяная стратегия, энергетический коридор.

Gunel Zafar Mehdizade
ANAS Institute of History, scientist researcher. PhD in history.
Azerbaijan Cooperation University,
E-mail: gunel.mehdizade@mail.ru

Fundamental point of Azerbaijan's oil strategy

Summary

The purpose of the research is to examine the difficult political and economic situation in which Azerbaijan found itself after gaining independence and its impact on the country's energy policy, the steps taken towards the implementation of the new oil strategy developed after Heydar Aliyev came to power, the attitude of foreign oil companies to the signing of the contract, the achievement of the signing of the oil contract within the framework of Azerbaijan's national interests, and the importance of the “Contract of the Century”, which is the cornerstone of the Azerbaijani oil strategy, in strengthening the political and economic development of Azerbaijan.

Research methodology of the study was mainly formed on the basis of the application of analysis and generalization methods. Comparative research methods were also used to determine the nature of the initial negotiations conducted for the signing of oil contracts, achieve the signing of oil contracts and study the implementation of the new oil strategy.

The practical significance of the research the scientific and practical innovations obtained in the article allowed for an objective study of the new oil strategy aimed at Azerbaijan's long-term economic development and the implementation of Azerbaijan's energy policy.

The results of the research - in the current historical conditions, when energy security has become an important issue for world powers, it is important to study the history of the preparation and implementation of the state strategy for the implementation of oil policy in the first years of independence.

The originality and scientific novelty of the research - it should be noted that the main scientific novelty is that, taking into account the significant role of energy in the world economy, the political and economic conditions of the interests of international and regional powers in the region against the background of international relations in the world in the early 1990s, the geopolitical situation in the South Caucasus, the energy policy of the Republic of Azerbaijan and Heydar Aliyev's oil strategy were analyzed scientifically and theoretically. The process of determining the routes of multi-branch pipelines for the transportation of Caspian energy resources was monitored and analyzed, and at the same time, the historical and political conditions for choosing the western route for the transportation of Caspian hydrocarbon resources to world markets were shown on scientific grounds.

Key words: Heydar Aliyev, contract, oil, hydrocarbon resources, oil negotiations, oil strategy, energy corridor